# Şəkil çəkmək istəyirəm...



Əli Rza XƏLƏFLİ

## NƏSİMİ

*Nəsimi təkyəsi-ocağı sönən,*
*Qor alar odundan közündən sənin...*
*Ömür yollarında haqqından dönən*
*Düz yolu soruşar özündən sənin...*

Bürəm-bürəm od tökən gözümüzdür Nəsimi,
Canımızda ağrıyan özümüzdür Nəsimi.

Zaman-zaman sönməyən korun-korun alışan,
Ocağımız, odumuz, közümüzdür Nəsimi.

Həqiqəti soyulan, inamı edam olan,
Əyilməyən doğrumuz, düzümüzdür Nəsimi.

İnamına güvənib tarixə yol gedirik,
Taqətimiz, gücümüz, dizimizdir Nəsimi.

Öz qanında qızaran, közərən dağ laləsi,
İnadından dönməyən üzümüzdür Nəsimi.

Xılta dönüb çökənlər Vətənin utanc yeri,
Üzümüzə tutmağa üzümüzdür Nəsimi.

Təbiətdə gül açan, ruhumuzda ağlayan,
Çiçək-çiçək göz yaşı-yazımızdır Nəsimi.

Bəxtimiz, taleyimiz min illərin acısı,
Alnımızda pozulmaz yazımızdır Nəsimi.

Türkün kişi adına hünərimiz, heyimiz,
Soyumuzda oğlumuz, qızımızdır Nəsimi.

Qoca Qafqaz, Xəzərdir, Qarabağ, Qaradağdır,
Aranımız, dağımız, düzümüzdür Nəsimi.

Ruhumuzun qidası, nəfəsimiz, havamız,
Çörəyimiz, suyumuz, duzumuzdur Nsimi.

Anası ağlar qalan körpə-körpə dərdimiz,
Başı bıçaq altında quzumuzdur Nəsimi.

“Nəsimi təkyəsi”nə uzanan tarix yolu,
Fikirlərdə yaşayan izimizdir Nəsimi.

İnamın qılıcında əbədiyyət günəşi,
Düşüncə dağlarında gəzimizdir Nəsimi.

Saralmış ümidlərdə uçub gedən fəsillər,
Ömrümüzün xəzanı, güzümüzdür Nəsimi.

Daşan səbir evimiz, bozaran sifətimiz,
Dolmuş qəzəblər üstə bozumuzdur Nəsimi.

Hələbdə güllə-baran, Xocalıda qan qırğın,
Diri gözlə ölümə nazımızdır Nəsimi.

Xələflinin adını sarı simdə çağıran,
Pərdə-pərdə alışan sazımızdır Nəsimi.

Adına sevglərlə dil açan körpələr var,
Söz eşqində çoxumuz, azımızdır Nəsimi.

Milyon-milyon zərrənin “Ənəlhəqq” dərgahından
Gəlişini gözləyən tozumuzdur Nəsimi.

Xəlifənin önündə qurrurundan yenməyən,
Babələrin adında yüzümüzdür Nəsimi.

**10.03.2019**

## SALAM OLSUN NƏSİMİYƏ

Seyid İmadəddin Nəsimi, salam,
Hələ soyumayan qanın mübarək!..
Qızaran dan yerim, düşüncə qalam,
Qanımda közərən canın mübarək!..

Yaxın gəl, bu günün dil bazarına,
Ya da mən səninlə tarixə dönüm...
Lənət eyləyəlim dünya varına,
Ənəlhəqq evinə açılsın yönüm.

Adınla öyünür bu yer, bu məkan,
Hünər meyvəsidir barın, bəhərin.
Zülməti dağıdan işığın, zəkan,
Doğan günəşidir gələn səhərin...

Səni dabanından soyan kəslərin
Xisləti niyyətə, vara əkilir...
Bu gün də hayqıran dinən səslərin,
Hərəsi bir yolla dara çəkilir.

İnsanlıq göz açıb düzü seçsə də,
Hələ boğa bilmir qaragüruhu...
Əsrlər dolanıb zaman keçsə də,
Nəsimi canıdır bəşərin ruhu...

Haqqı, həqiqəti edama çəkən.
Bu dünya hələ də Hələb meydanı.
Özü öz içində dağılan, çökən,
İnsanı dəyərlər tamah qurbanı.

Seyid İmadəddin Nəsimi, salam,
Hələ soyumayan qanın mübarək!..
Qızaran dan yerim, düşüncə qalam,
Qanımda közərən canın mübarək!..

**29.03.2019**

## SALAM CƏFƏR BABA

*Cəfər Cabbarlının xatirəsinə*

Salam Cəfər baba, cavan olsan da,
Zəkana baş əyir ruhum, varlığım.
Yaddaşda yaşayıb yaşa dolsan da,
Sənə heyrətdədir ixtiyarlığım.

Duyan könüllərə ocaq, od olan,
Adında yaşayır sözün göynəyi.
Sənin söz dünyanda təzə-tər qalan
Əbədi örnəkdir sənət köynəyi.

Səninlə açılır səhərimiz də,
«Gün aydın» deyirik ellər bağında.
Qarabağ dərdimiz, kədərimiz də
Yanır səhnəmizin dilək dağında.

Dillərdə ötürsən - gülüşünlə gəl,
İlham bulağımız çağlayar, daşar!
Kimsə doğru deyib məndən çox əvvəl
«Sevilin sevilər, Yaşarın yaşar».

Salam Cəfər baba, cavan olsan da,
Zəkana baş əyir ruhum, varlığım.
Yaddaşda yaşayıb yaşa dolsan da,
Sənə heyrətdədir ixtiyarlığım.

**12.03.2019**

## KAMİL VƏLİ NƏRİMANOĞLUNA

Kamil Vəli, sözüm qanad bağlayar,
Durnalanar Ərzuruma... qatar hey...
Qarabağdan bir ah gəlsə payına,
Göy üzündən lələk-lələk atar hey...

Bilirəm ki, sən dilisən hər türkün,
Varlığında nəfəsi var nər türkün...
Damarında qanı donsa ər türkün,
Yatağanı öz qınında yatar hey...

Harda olsan Vətən eşqi, andısan,
Hər sözümü varlığımın andı san...
Pörşələndi dilim, ağzım yandı, san,
Dönükləri Vətən ahı tutar hey...

Tanrı çəkər hər sınağa mərdini,
Zəri üstə açıq qoyar nərdini...
Ağrıya bax, Araza de, dərdini,
Novruzacan gəlib mənə çatar hey...

Ağrı çəkir nisgilimin yaddaşı,
Daş da ağlar ayrı düşsə qardaşı...
Göyərməsə ümidimin göy daşı,
Xələfli də göz yaşında batar hey...

## AVDI QOŞQARA ÜÇ ŞEİR

Göy üzündə bir səs vardı,
dolanardı yeri, göyü.
Səs içindən səs baxardı,
yandırardı, yaxardı;
damara qan vuran
şəhəri, köyü.
Bəlkə, o səs taledi, bəxtdi
dolanan gərdişdi...
Bəlkə, bitməyən arzudu, diləkdi;
bəlkə, saf toxumdu, dəndi...
Bir gün o səs -
bir atanın qanına qarışdı,
bir ananın bətninə endi.
Göy üzündəki səsdən
dünyaya gələn uşaq -
Nə İsa deyildi, nə də Məhəmməd.
Ruhunda, varlığında,
Tanrıdan bərəkət.
Süfrəsində sözdən,
hikmətdən neçə nemət.

...Unutmadı göy Tanrı o səsi,
yaddan çıxarmadı Ulu Yaradan.
Özü oldu Göy üzündən
gələn səsin
simsarı, kimsəsi.
Alnına döyüşçü olmaq qisməti yazdı.
Üstündə oldu gözü;
qorudu sözü ilə
döyüşən mərdini.
Bir də payını əsirgəmədi -
dünyanı anlamaq dərdini.

...Göy üzündə bir səs var;
insanları haqqa,
həqiqətə çağıran səs...
Hərdən o səsi
mən də eşidirəm:
Hardasan, ay Xələfli,
gəl, Qarabağa gedirəm!

* * *

Allahın göndərdiyi
bir əkinçi
Misra-misra şum eləyib,
söz-söz toxum əkib.
«Sabir Adilə beş şeir...»dən
Süzülüb gələn duyğular
bir adam şəklini çəkib.

Bu adam hər kəsə
bənzəmir deyəsən
Nə gözə görünür,
nə sözə gəlir öyəsən.
Nə öldüyü bilinir, nə qaldığı
Nə verdiyi bilinir, nə aldığı.
Ancaq işıq kimi, nur kimi,
varlığımıza axır.
Bircə onu bilirsən ki,
yalanla yox kimidi.
Döyünən ürəklərdə tar simidi
bu şəkil adam.
Var olanla varda var,
Dilindən dara çəkilənlə
darda var.
Bir xeyirxah adama salamda,
doğru sözdə, kəlamda,
daha nə bilim...
Harda desən orda var.

Bəlkə, Allahın şəklidi...
Ulu Yaradanın -
Göy Tanrının
üzünü görənmi var?..
Bəlkə, Allahın şəkli də
Sabir Adilə yazılan
beş şeirdə olduğu kimidi?!

* * *

İlahi, səninlə qara sevdam var,
De görüm bu rəngi harda yazmısan?
Məni parça-parça didir quzğunlar
Bir balıq bəxtimi torda yazmısan?

Şeytan ruhumuzu şumlayıb, əkir,
Hardandır bu qədər kini, qərəzi?
İlahi, kim gəldi, nə gəldi çəkir,
Axı səninkidir bu «daş tərəzi».

İlahi, üstümə qanad gərmisən,
Baxıb qınaqlara bir sərt baxışla.
Mənim də haqqım var - özün vermisən
Yağaram göylərdən qarla, yağışla.
«Gəlmişdim dünyanın dərdini çəkəm»,
Allahsız adamlar yolumu kəsdi;
Gəlmişdim bu yerə təzə dən əkəm -
Üstümdən çox acı rüzgarlar əsdi.

Burda çiçəklənmir arzu, diləklər,
Verdiyin doyurmur gözü acları.
Könlümü ovutmur burda mələklər,
Kölgəsiz güllənir «qəm ağacları».

Mən deyən yer deyil bu dünya axı
«Qaldır öz yanına, Tanrım», gələrəm.
Ordan yer üzünə boylanıb baxıb,
Burda gülməsəm də, orda gülərəm.

İlahi, saxladım dərdin tacını,
Can satıb, qəm alıb axça yığmışam.
Çəkib yer üzündən ağrı, acını,
Sənə gətirməyə boxça yığmışam.

İlahi, gəlirəm... Gəlsin mənimlə,
Avdı Qoşqar adlı bir bəndən də var,
Baxıb göy üzündən gülsün mənimlə,
Xələfli dərdinə bir dən-dən də var.

İlahi, rəhm elə, çıxaq yanına,
Daha niyə qalaq biz bu diyarda.
«Sevdalar ağlayır» şəhid qanına
Məcnunlar qəhr olur «boz səhralarda».

**2018**

## KAMİL MƏHƏRRƏMOĞLUNA

Salam əziz dostum, Kamil bəy, salam;
Yaşın altmışında xoş gördüm səni.
Dostluqda basılmaz Əlincə qalam
Ruhumun evində baş gördüm səni.

Türkün daş pasportu adın, ünvanın,
Bir kəndin tarixi sözündən keçir.
Nehrəmi gülüşün, Nuh Naxçıvanın,
Ocağından keçir, közündən keçir.

Həmsöhbət olmuşuq dalğa dilində,
Səsimiz, ünümüz göylərə yetib.
Kədər ölkəsində, ağrı elində,
Şəhər insanlara, köylərə yetib.

Dedim ki, sən mənim Əlincə qalam,
Mən də səndən ötrü Xudafərinəm.
Sədaqət andına əbədi yolam,
Səninlə sevinər, ilim, qərinəm.

Hələlik, ay dostum, yol gedirik biz,
Üzü gələcəyə tikanlar üstə.
Bir gün Araz üstə gülər bəxtimiz,
Təki sən Tanrıdan bir möhlət istə.

**30.01.2019**

## YOLUM TANRI DAĞINA

Şirin dilə, dadlara,
Türkdən qalan adlara;
Yansa canım odlara,
Külüm Tanrı dağına;
Yolum Tanrı dağına.

Baş qaldıra şamanım;
Hanı mənim dərmanım?!
Turan axır gümanım,
Çölüm Tanrı dağına,
Yolum Tanrı dağına.

Boz qurdum uladı, gəl,
Qanımı yaladı, gəl.
Basılmaz qaladı, gəl
Elim Tanrı dağına,
Yolum Tanrı dağına.

Atilla, Mete Xaqan,
Doğudan Batıyacan,
Çağırar Azərbaycan;
Dilim Tanrı dağına,
Yolum Tanrı dağına.

İnamın qan daşına,
Gəlin ocaq başına;
Xələflinin yaşına,
İlim Tanrı dağına,
Yolum Tanrı dağına.